# 85 YAŞLI KİTABXANA




**Kiabxana işinin tarixi ümumi tariximizin, mədəniyyət tarixinin parlaq səhifəsi, ayrılmaz tərkib hissəsidir. Böyük və qədim tarixi keçmişi olan xalqımız kitabxanaları yüksək qiymətləndirmiş, onu sevmiş, qayğı göstərmiş, əsrdən-əsrə, nəsildən-nəslə böyük yadigar kimi hədiyyə etmiş, qoruyub saxlamışdır.**

Xalqımızın yetişdirdiyi dünyaşöhrətli şəxsiyyətlərdən: Xaqani, Nizami, Tusi, Füzuli, Şah İsmayıl Xətai, M. F. Axundov, S.Vurğun və başqaları millətin, ölkənin mədəni inkişafında kitabxanaların rolunu, əhəmiyyətini yüksək qiymətləndirmiş, kitabxananı müqəddəs bir yer, elm, təhsil, tərbiyə, bilik və mərifət evi adlandırmışlar.

Kitabxanalar cəmiyyətin sosial strukturunda mühüm yer tutduğundan tarixən onların yaranması və inkişafı həmişə cəmiyyətdə baş verən proseslərlə bağlı olmuşdur. Bir qayda olaraq bütün ictimi-siyasi quruluşlarda cəmiyyət kitabxananın hamisi kimi çıxış etmiş, kitabxanalar yaratmış, onların inkişaf istiqamətlərini, vəzifələrini müəyyənləşdirmişdir. Beləliklə də kitabxana onu yaradan cəmiyyətə xidmət etmiş, cəmiyyət üzvlərinin informasiya tələbatının ödənilməsinə, maariflənməsinə, təhsilinə və mədəni səviyyəsinin yüksəlməsinə köməklik etmişdir.

Digər tərəfdən, kitabxana sivilizasiyanın əsas atributlarından biri kimi həmişə mədəniyyətin mühüm tərkib hissəsi, kommunikasiya sisteminin əsas naqillərindən biri kimi fəaliyyət göstərmiş, bəşər mədəniyyətinin hərtərəfli inkişafına xidmət etmişdir. Məhz buna görədir ki, cəmiyyə-

tin inkişafında baş verən hər cür ictimai-siyasi, sosial, inqilabi proseslər bilavasitə kitabxana işinə mühüm təsir göstərmişdir.

Azərbaycanda kitabxana işinin inkişafı və tərəqqisində respublikamızın paytaxtı Bakı şəhərinin böyük rolu olmuşdur.

XX əsrin əvvəllərində Azərbaycanın digər yaşayış məntəqələrindən fərqli olaraq Bakı şəhəri xüsusi əhəmiyyət kəsb etməyə başladı. Bu da Azərbaycanda neft sənayesinin inkişafı ilə əlaqədar idi. Məhz bu illərdə Bakı şəhəri sürətlə böyümüş, ölkənin ən böyük şəhərlərindən birinə çevrilmişdi.

Bu dövdə Azərbaycanda xalq maarifinin, mədəniyyətin, mətbuatın, kitab nəşrinin inkişafı üçün əlverişli şərait yaranmışdı. Mədəni-maarif müəssisələrinin- qiraətxanaların, kitabxanaların, klubların təşkili kütləvi hal almışdı. Məhz həmin dövrdə xalqımızın əldə etdiyi ən böyük nailiyyət, qazandığı ən zəngin sərvət yüksək intellektə, milli mentalitetə, milli ruha malik qabaqcıl, vətənpərvər Azərbaycan ziyalısının yetişməsi olmuşdur. Bu yüksək səviyyəli insanlar Azərbaycan xalqının milli mənafeyinə xidmət edən mühitin yaranmasına səbəb olmuşdular. İşıqlı insanların yaratdığı bu sağlam ab-hava xalqın milli şüurunun formalaşmasına səbəb olmuş, yeni formalaşan türkçülük, Azərbaycançılıq ideyalarının inkişafına təkan vermişdir.

1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi bütün Azərbaycan xalqı tərəfindən sevinclə qarşılandı.

Azərbaycan Xalq Cümhuriyyəti xalqın milli özünüdərketməsində, milli şüurun formalaşmasında mühüm rolu olan milli mədəniyyətin, təhsilin, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsinə xüsusi diqqət yetirmişdir.

1918-1920-ci illərdə mədəni quruculuq sahəsində həyata keçirilən tədbirlər içərisində kitabxana işi ilə bağlı tədbirlər mühüm yer tuturdu. 1920-ci ildə respublikada ən azı 400-ə yaxın məktəb kitabxanası və 50-yə qədər xalq kitabxana-qiraətxanası olmuşdur.

Ölkədə əhaliyə kitabxana xidmətinin təşkilinə xüsusi diqqət yetirən dövlət həm mövcud kitabxanaların, həm də yeni təşkil edilmiş kitabxanaların kitabla təchizini ardıcıl olaraq yerinə yetirmək məqsədilə 1918-ci ilin avqustunda Kitabxana Kollektoru yaradılması haqqında qərar qəbul etdi. Kitabxana Kollektoru Xalq Maarif Nazirliyinin yanında fəaliyyət göstərirdi.

Kollektorun qarşısında ayrı-ayrı kitab mağazalarından, təşkilatlardan, şəxslərdən kitabları alıb kitabxanalar arasında bölüşdürmək vəzifəsi qoyulmuşdu. Kollektorun Azərbaycan, rus və xarici dillər şöbəsi var idi. Həmçinin Kollektorun yanında bu işləri idarə etmək üçün xüsusi komissiya fəaliyyət göstərirdi. Kitabxana Kollektoru az müddət içərisində öz fəaliyyətini o qədər də genişləndirə bilməsə də məqsədin özü böyük əhəmiyyət kəsb edirdi.

Müstəqil Azərbaycan hökuməti qısa bir müddətdə, cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ölkədə xalq maarifi, mədəniyyət, o cümlədən kitabxana işi sahəsində böyük işlər görmüşdür. Xalq Cümhuriyyəti Parlamentinin və Azərbaycan hökumətinin qəbul etdiyi mədəni quruculuq haqqında sənədlərdə kitabxana işi məsələləri qırmızı xətt kimi keçir, əhaliyə kitabxana xidmətinin təşkilinə böyük qayğı ilə yanaşılır. Məhz bu sənədlərdə milli mədəniyyətimizin inkişaf konsepsiyası öz əksini tapmış və gələcək nəsillərə yadigar kimi istiqamətləndirilmişdir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra hökumət kitabxana işini inqilabi yolla yenidən qurmağa başladı. Kitabxana işinə dövlət rəhbərliyi Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən həyata keçirilirdi.

Kitabxanaların müntəzəm olaraq planlı şəkildə, məqsədəuyğun formada komplektləşdirilməsi bu işlə məşğul olan müəyyən bir müəssisənin yaradılmasını tələb edirdi. Odur ki, Xalq Maarif Komissarlığı 1920-ci ildə kitab məhsullarını respublika kitabxanaları arasında düzgün bölüşdürmək və kitabxanaların komplektləşdirilməsini mərkəzləşdirmək məqsədilə Mərkəzi Kitabxana Kollektoru təşkil etdi.

Kitabxana Kollektoru kitabların toplanmasında, qorunub saxlanmasında və kitabxanalar arasında bölüşdürülməsində mühüm rol oynayırdı. Kitabxana Kollektoru kitabxanaları planlı surətdə hər birinin profilinə, yerli şəraitinə, onun tərkibinə uyğun olaraq komplektləşdirirdi ki, bu da mütəxəssis kitabxanaçılar olmadığı bir dövrdə çox mühüm əhəmiyyətə malik bir məsələ idi. Kollektor eyni zamanda kitabxanaları kitabxana texnikası ilə də təchiz etməyə çalışırdı.

1922-ci ilin mart ayında Kitabxana Kollektoru düzgün olmayaraq ləğv edildi. Kollektorun ləğv edilməsi tezliklə respublikada kitabxana işinin inkişafına mənfi təsir göstərdi.

Kollektor 1922-ci ilin iyul ayında yenidən bərpa edildi.

1922-ci ilin iyun ayında Bakı, onun rayonları və Bakı qəzasındakı kitabxanaları komplektləşdirmək üçün Bakı Xalq Maarif şöbəsinin nəzdində kollektor təşkil edildi.

Kollektorun təşkili Bakı kitabxanalarının kitabla vaxtında təchiz edilməsi işinə kömək etdi. Kollektor kitabxanaları komplektləşdirməklə yanaşı, kitabları işləyir, məsləhətlər təşkil edir, ayrı-ayrı idarə və müəssisələrdə səyyar məntəqələr açırdı.

Qeyd etmək lazımdır ki, Bakı müəssisələrində səyyar kitabxana işinin ilk təşəbbüsçüsü Kitabxana Kollektoru olmuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər Bakıda səyyar kitabxanalar yox idi. 1924-cü ilin iyun ayının 1-dən 7-nə kimi Moskvada kitabxana işçilərinin I qurultayı keçirildi. Qurultayda kitabxana işi ilə bağlı məruzələrlə yanaşı, səyyar kitabxanalar haqqında da məruzə dinlənildi.

Respublikamızda hələ qurultaya qədər Kollektorun işçiləri Bakı şəhərinin fabrik-zavodlarında səyyar kitabxanalar təşkil etmək məsələsini müzakirə etmişdilər, lakin 1924-cü ilin may ayında Bakı Xalq Maarif Şöbəsi yanında Kitabxana Kollektorunun başqa binaya (Poluxin küçəsi, 9 ünvanındakı evə-indiki Murtuza Muxtarov, 9) köçürülməsi ilə əlaqədar bu iş təxirə salınmışdı.

1924-cü ilin oktyabr ayından Kollektor müəssisələrdə səyyar kitabxanalar təşkil etmək işini genişləndirməyə başladı.

İlk səyyar kitabxanalar Kollektor tərəfindən 1924-cu ilin oktyabr ayında "Qırmızı Oktyabr" mebel fabrikində, Volodarski adına tikiş fabrikində, "Qırmızı Oktyabr" tütün fabrikində, sonralar isə bir sıra başqa yerlərdə təşkil edildi.

Birinci iki ildə səyyar kitabxanaların işində universitetin və politexnik institutunun tələbələri fəal iştirak etdilər. Onlardan hər biri həftədə bir dəfə Kollektorun işçiləri ilə səyyar məntəqələrə gedir, orada kitab verilişinə və kütləvi işlərin keçirilməsinə kömək edirdilər.

Sonralar Bakı Xalq Maarif Şöbəsinin Kitabxana Kollektoru Mərkəzi Səyyar Kitabxana Fonduna çevrildi.

Özünəməxsus yaranma tarixi olan, bu günə kimi uzun və çətin bir yol keçmiş, ənənələrini qoruyub saxlayan bu elm məbədi və mənəviyyat xəzinəsi xalqın sərvətidir.

1936-cı ildən MSKF rus yazıçısı Maksim Qorkinin adını daşıyır.

Böyük Vətən müharibəsi dövründə Bakı zəhmətkeşlərinin vətənpərvərlik hərəkatının genişlənməsində şəhərin mədəni-maarif müəssisələri də yaxından iştirak edirdi.

Müharibənin ilk günlərində şəhərimizin başqa müəssisələrində olduğu kimi, Bakı kitabxanalarında, o cümlədən M. Qorki adına MSKF-də də mitinqlər keçirilirdi. Mitinqlərdə kitabxananın işçiləri ilə yanaşı, oxucular da iştirak edirdi. Kitabxanada dövrün tələbləri ilə əlaqədar olaraq kitab təbliğində əsas yeri müharibə mövzusuna verir, vətənpərvərlik əhval-ruhiyyəli kitabların təbliğini ön plana çəkirdilər. Burada bütün təbliğat-təşviqat işi, kitab təbliği və kütləvi işlər bilavasitə müharibəyə həsr edilmişdi.

M.Qorki adına kitabxana Bakı şəhər, rayon hərbi komissarlıqlarında olan çağırış məntəqələrində səyyar kitabxanalar təşkil etmişdi. Səyyar məntəqələrə vətənpərvərlik ruhunda, xalqımızın keçmiş qəhrəmanlıqları haqqında kiçik həcmli şeir və hekayələrdən ibarət kitabları daha çox gətirirdilər. Bu məntəqələrdə dövri mətbuat, qəzetlər və jurnallar, Sovet Məlumat Bürosunun xəbərləri toplanır və çağırışçıların ixtiyarına verilirdi.

Müharibə illərində Bakının bütün kitabxanaları kimi, M. Qorki adına kitabxana da geniş zəhmətkeş kütlələri ilə yanaşı, bilavasitə döyüşən orduya da xidmət edirdi. Kitabxana orduya çağırılmış keçmiş oxucularla əlaqə saxlayır, onlara kitab göndərirdilər. Kitabxana işçiləri cəbhəyə

ümumxalq köməyində yaxından iştirak edir, isti paltar, əlcək, ərzaq məhsulları və s. ilə yanaşı, kitab bağlamaları da göndərirdilər. Göndərilən hədiyyələr içərisində S. Vurğunun, S. Rüstəmin, M.Rahimin, Ə.Caminin və başqalarının müharibəyə həsr edilmiş əsərləri də var idi. Cəbhədə döyüşən azərbaycanlılar üçün öz ana dilində göndərilən yüksək vətənpərvərlik və qəhrəmanlıq ruhunda kitablar onların döyüş qabiliyyətini birəbeş artırır, əhval-ruhiyyəsini yüksəldirdi.

1941-ci il iyul ayının 25-də Azərb. K (b) Bakı Komitəsinin göstərişi ilə Bakı şəhərində M.Qorki adına Səyyar Kitabxana Fondu yanında hərbi xəstəxanalara xidmət etmək məqsədilə xüsusi fond yaradıldı. Bu fondun əsas məqsədi hərbi qospitallarda səyyarlar təşkil etmək və qospitallarda mövcud olan səyyarları kitabla təmin etmək idi.

Bu fonda kitab toplamaq işində şəhərin bütün kitabxanaları yaxından iştirak edirdilər. Kitabxanalar öz fondlarından ən yaxşı elmi, kütləvi və bədii ədəbiyyatın əlavə nüsxələrini seçib Səyyar Fonda verirdilər. Səyyar Kitabxanaya kitab toplanmasında zəhmətkeşlər də kömək edirdilər. Qısa müddət ərzində oxuculardan 25 min nüsxədən artıq kitab toplandı.

Müharibə illərində Bakı kitabxanalarının geniş zəhmətkeş kütlələrinə kitabxana xidməti sahəsindəki fəaliyyətində səyyar kitabxanaların təşkili mühüm yer tuturdu. Bu həmin dövrün xarakterindən irəli gəlirdi. Fabrik, zavod və neft mədənlərində müharibə şəraiti ilə əlaqədar iş müddətinin artırılması, çoxnövbəli iş sisteminin tətbiqi fəhlələrin boş vaxt imkanını xeyli azaltmışdı. Ona görə də bəzən kitabxanalara getməyə vaxt qalmırdı.

Məhz bunu nəzərə alan Bakı kitabxanaları fəhlə sinfinə elə iş yerindəcə xidmət etməyi, iş növbələrinin başlanması, qurtarması və nahar fasiləsi zamanı səyyarlar vasitəsilə kitablarla təmin etməyi qərara almışdı. Kitabxanalar fabriklərdə, zavodlarda, neft mədənlərində, xəstəxanalarda, evlər idarələrində səyyar məntəqələr təşkil etmişdilər. Bu sahədə M. Qorki adına Bakı şəhər Səyyar Kitabxana Fondu xüsusilə fərqlənmişdi. Səyyar kitabxanalarda xidmət işinin forma və məzmununda da yeniliklər baş vermişdi. Səyyarlar ayrı-ayrı briqadalarda, sexlərdə tez-tez ucadan oxular keçirirdilər. Xüsusilə nahar fasiləsində Sovet İttifaqı Məlumat Bürosunun xəbərlərinin oxunması və arxa cəbhədə sovet xalqının qəhrəmanlıqları haqqında materialların müzakirəsi adət halını almışdı. Oxucuların tələb və marağı da xeyli dəyişmişdi. Onlar vətənpərvərliyə, xalqlar dostluğuna, klassiklərin müharibəyə dair əsərlərinə daha çox maraq göstərirdilər.

İstehsalat-texniki ədəbiyyata tələbat da xeyli artmışdı. Bu da adamların yeni ixtisaslara yiyələnmək arzusundan irəli gəlirdi. Səyyar məntəqələrin işçiləri məhz oxucu tələbatında baş verən dəyişikliklərə uyğun olaraq əsas fonda kitablar sifariş verirdilər. Səyyar fond hələ 1941-ci ilin iyununda Voroşilov rayon şağırış məntəqəsində, 1942-ci ilin avqustunda isə Rostovdan köçürülən əhaliyə xidmət etmək üçün dəmiryolu və dəniz vağzalında, bir neçə körpüdə səyyar məntəqələr yaratmışdı. Bu məntəqələr başqa məntəqələrdən fərqlənirdi.

Onlarda stasionar kitabxanalarda olduğu kimi qiraətxanalar təşkil edilmişdi. Qiraətxanalarda müvəqqəti olaraq vağzallarda qalan yüzlərlə adam mütaliə ilə məşğul olurdu. Hələ müəyyən bir mənzilə yerləşdirilənə və ya başqa yerə göndərilənə qədər müvəqqəti olaraq vağzallarda qalan əhali arasında kitabı təbliğ etməyin, onların diqqətini müharibənin qarşıya qoyduğu çətinliklərə cəlb etməyin böyük siyasi əhəmiyyəti var idi.

M. Qorki adına kitabxananın səyyar məntəqələrinin sayı 1940-1944-cü illərdə iki dəfədən çox artaraq 84-dən 173-ə çatdırılmışdı.

Sonrakı dövrlərdə kitabxananın təcrübəsi göstərdi ki, oxucularla əlaqəni möhkəmlətmək və kitabın təbliğini daha da yaxşılaşdırmaq üçün yeni iş üsullarından istifadə etmək lazımdır. Səyyar iş çərçivəsindən kənara çıxmaq, yeni abonement və qiraət zalı açmaq vaxtı çatmışdı. Bu, əhalinin əksər hissəsini mütaliəyə cəlb etməyə, onların kitaba olan ehtiyacını ödəməyə imkan yaradardı. 1950-ci ildə kitabxanada yalnız qadınlara məxsus abonement və lektoriya təşkil edilir. Kitabxananın nəzdində uşaq otağı da yaradılmışdı. Analar kitabxanada məşğul olduqları müddətdə burada onların uşaqlarına qayğı göstərilirdi.

Azəri qadınları arasında savadsızlığı ləğv etmək işində kitabxana fondunun kollektivi təqdirəlayiq işlər görmüşdür. Həmin məqsədlə burada "Mütaliə edən qadınlar" adlı dərnək yaradılmışdı. Dərnəyin fəal üzvləri evlərdə, məktəb və klublarda kitabı təbliğ edib yayırdılar. Dərnəyin buraxdığı divar qəzetində yeni kitablar haqqında məlumat verilir, yaxşı kitabın insanın həyatına böyük təsiri barədə məqalələr dərc olunurdu.

Respublikamızda "açıq rəf " üsulu ilk dəfə 1959- cu ildə M.Qorki adına MSKF- də tətbiq edilmış, kitabxanalarda ilk Mədəniyyət Universiteti isə 1961-ci ildə M.Qorki adına Mərkəzi Səyyar Kitabxana Fondunda yaradılmışdır. Bu işdə yazıçı və şairlərdən Adil Babayev, Xəlil Rza, Əkrəm Cəfər, teatr tənqidçisi Cabir Səfərov, sənətşünas İnqilab Kərimov, səhnə ustalarından Atamoğlan Rzayev, bəstəkarlardan Şəfiqə Axundova və başqaları yaxından iştirak ediblər. Bu universitetin məqsədi müəyyən ixtisas və peşə vermək deyil, dinləyiciləri daha çox maraqlandıran bir elm haqqında sistemli bilik vermək olub.

A.Qurbanov, A.Rzayev, S.Hacıyeva, İ.Qafqazlı, İ.Dağıstanlı, L.Bədirbəyli, H.Salayev, F.Şərifova, Ə.Kərim, N.Həsənzadə, R.Zəbioğlu, M.İbrahim, Ş.Ələkbərova, H.Əliyev, Ə.Bədəlbəyli, R.Əfqanlı və bir cox dəyərli sənətkarlarımız M.Qorki adına MSKF-də fəaliyyət göstərən Mədəniyyət Universitetində təşkil olunan mühazirə və konsertlərin, ədəbi-bədii gecələrin daimi iştirakçıları olublar.

1977-1991-ci illərdə kitabxana Azərbaycan Sərhəd Dairəsini kitablarla təmin etmişdir. Bunun üçün MSKF xüsusi briqadalar şəklində məruzəçilər toplamış, həmin dairədə konsertlər, mühazirələr təşkil etmişdir.

Hər zaman olduğu kimi bu gün də kitabxananın fəaliyyəti kitab fondunun, eləcə də oxucuların sayının müntəzəm sürətdə artması ilə xarakterizə olunur.

Hazırda kitabxanada 6 şöbə fəaliyyət göstərir. Kitab fondu 200 min nüsxəyə, oxucuların sayı isə 15 minə yaxındır. 2005-ci ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunmuş ədəbiyyatdan 453 adda 188400 nüsxə kitab kitabxanaya hədiyyə edilib.

Kitabxana fondunda keçirilən kütləvi tədbirlər, sərgilər, mühazirələr, ekskursiyalar, yazıçılarla, elm, mədəniyyət və incəsənət xadimləri ilə təşkil edilən görüşlər ədəbiyyatın təbliğ edilməsində mühüm rol oynayır. Tanınmış şair və yazıçılarla keçirilən görüşlər oxucuların yaddaşından uzun müddət silinmir.

Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin 2008-ci ildə müxtəlif nominasiyalar üzrə kecirdiyi müsabiqədə M.Qorki adına MSKF Bakı şəhər kitabxanaları içərisində ən fəal kitabxana kimi diploma layiq görülüb.

2009-cu ildən M. Qorki adına MSKF-də kitabxana işinin ən vacib sahəsi olan elektron kataloqun tərtibinə başlanmışdır və davamlı şəkildə milli ədəbiyyata dair təsvir məlumat bazasına daxil edilir.

2009-cu ilin fevral ayında M. Qorki adına Mərkəzi Səyyar Kitabxana Fondunda İnformasiya Mərkəzinin açılması kitabxananın fəaliyyətində mühüm bir hadisə oldu. Bu mərkəzin yaradılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 oktyabr 2008-ci ildə imzaladığı "Azərbaycan Respublikasında kitabxana - informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" çərçivəsində həyata keçirilib. İnformasiya Mərkəzi ilə yanaşı, kitabxananın saytı www.baku-mskf.az və elektron kataloq da istifadəçilərin ixtiyarına verilib.

Bu gün kitabxanalara dövlət tərəfindən göstərilən diqqət və qayğı kitabxananm kollektivini daha məsuliyyətlə çalışmağa və yeni nailiyyətlər əldə etməyə ruhlandırır.

● **Rəhilə ƏLİYEVA,**
***Kitabxananın Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri***